# ELLƏRƏ DƏ VER




Şamaxının Çuxuryurdu...
Ellər alaçığın qurdu,
Təzəgəlin sübhdən durdu,
Oğlun aldı, layla çaldı.

Qarabağın yaylağında,
Şəkinin güllü bağında.
Təzəgəlin sübh çağında,
Oğlun alır, layla çalır.

N ə q ə r a t:

A tanrı, bundan beş dənə də ver;
Göydə uçan quşlara da ver,
Qarımış-qocalmışlara da ver,
Evində qalmışlara da ver.